

Ermənistanın Milli Təhlükəsizlik Nazirliyi azərbaycanlı ailənin bu ölkədən siyasi sığınacaq istəməsi barədə məlumatlara aydınlıq gətirib.

AzNews.az erməni mətbuatına istinadən xəbər verir ki, hadisə Baqrataşen rayonunda baş verib. Nazirlik bildirib ki, erməni-gürcü sərhəddində Bakı sakini 1976-cı il təvəllüdlü Cavid Orucov özü, həyat yoldaşı və 3 uşağı ilə bərabər müraciət edib.

Nazirliyin açıqlamasında bildirilir ki, C.Orucov bu istəyinin səbəbini erməni əsilli R.Mirzoyeva ilə evləndikdən sonra qarşılaşdığı təzyiqlərlə əlaqələndirib. Bakı sakini olan R.Mirzoyeva 1983-cü ildə dünyaya gəlib. C.Orucov iddia edib ki, bu evlilikdən sonra xüsusi xidmət orqanlarının təzyiqlərinə davam gətirməyərək bu qurumlarla əməkdaşlığa razılıq verib. C.Orucov həyat yoldaşının xaricdə yaşayan qohumları vasitəsilə Ermənistan və diaspor haqqında məlumatlar toplamalı olduğunu deyib.

Erməni mətbuatının yazdığına görə, hazırda BMT-nin bu ölkədəki nümayəndəliyi və Ermənistan Miqrasiya Xidməti ailənin müraciətini araşdırır.